**Yaranma tarixi:** 2019-ci il

**Məqsəd:** Azərbaycanda ali təhsil almaq istəyən əcnəbilərə müvafiq məlumat dəstəyi ilə yanaşı, həm də SIA-nın elektron poçt və sosial media hesablarına göndərilən müraciətlərin cavablandırılmasını həyata keçirməkdir.

**Məlumat:** studyinazerbaijan.edu.az internet səhifəsi əcnəbi tələbələrin Azərbaycanda təhsili barədə rəsmi məlumat mənbəyi kimi fəaliyyət göstərir. SIA portalında əcnəbilərin Azərbaycanda ali təhsili ilə bağlı çoxsaylı məsələlər işıqlandırılır. Bunların arasında Azərbaycanı təhsil üçün seçmək səbəbləri, ATM-lərin təklif etdiyi müxtəlif səviyyələrdə və dillərdə təhsil proqramları, təqaüd imkanları, qəbul qaydaları və proseduru, məzunlar barədə məlumat, statistik hesabatlar və Azərbaycanda təhsilin şərtləri var.

Əhatə dairəsi: 2021-2022-ci tədris ili üzrə ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində 101 ölkədən 7400-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan şəxs təhsil alır. Tələbələr əsasən Türkiyə, İran, Gürcüstan, Rusiya, İraq, Nigeriya, Suriya, Hindistan, Pakistan, Çin Xalq Respublikası və digər ölkələri təmsil edir.

201 əcnəbi tələbə dövlət hesabına təhsil hüququ əldə edib. Ölkə Prezidentinin sərəncamları ilə təsis edilmiş Təhsil Qrantı Proqramları çərçivəsində İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları olan 67 ölkədən 125 əcnəbi təhsil almaqdadır.